# Maraqlı və maarifləndirici tədbir

Azərbaycan Respublikası Hərbi Prokurorluğu tərəfindən Ümummilli Lider Heydər Əliyevin birinci dəfə hakimiyyətə gəlişinin 55-ci ildönümü və ölkəmizdə 2024-cü ilin “Yaşıl Dünya Naminə Həmrəylik ili” elan edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Daxili Qoşunların N saylı Hərbi hissəsində tədbir keçirilib. Qəbələ Rayon İcra Hakimiyyətinin, Azərbaycan Respublikası Hərbi Prokurorluğunun nümayəndələri və Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları tərəfindən Ümummilli Lider Heydər Əliyevin abidəsinin və Şəhidlər xiyabanında şəhidlər guşəsinin önünə gül dəstələri düzülərək tarixi şəxsiyyətin və qəhrəman vətən övladlarının ruhlarına ehtiram ifadə olunmuşdur. Daxili Qoşunların N saylı Hərbi hissəsində davam edən tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, Ulu Öndər Heydər Əliyevin və bütün şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılmışdır. Tədbirdə çıxış edənlər müstəqillik yolumuzu və firavan istiqbalımızı nurlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs etmiş, ölkə rəhbərinin uğurlu xarici siyasəti sayəsində dövlətimizin beynəlxalq aləmdə artan nüfuzundan, o cümlədən ölkəmizdə keçirilmiş COP29-un mahiyyəti və ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin tələblərindən, həmçinin ekoloji qanun pozuntularından söz açmışlar. Sonra hərbi qulluqçuların qayğı və problemləri ilə maraqlanılmış, onlarla hüquqi maarifləndirici mövzularda söhbətlər aparılmışdır.





# Qəbələ Dövlət Peşə Təhsil Mərkəzi ilə əməkdaşlıq




“TABİA Group” MMC Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin pedaqoji heyət və tələbələri ilə görüş keçirmişdir. Görüş zamanı əmək bazarının tələblərinə uyğun kadr hazırlığının dəstəklənməsi məqsədilə imzalanmış Anlaşma Memorandumuna əsasən “TABİA Group” MMC-nin tabeliyində olan hotellərdə tələbələrin istehsalat təcrübəsi, təlimi keçməsi prosesi razılaşdırılmış, Memorandum çərçivəsində turizm və xidmət istiqamətləri üzrə ixtisaslı kadrların hazırlanması, onların bilik və bacarıqlarının artırılması, DUAL proqramların tətbiqi, tədris proqramlarının və təlimin keyfiyyətinin yüksəldilməsinin təmin edilməsi istiqamətində davamlı olaraq tədbirlər görülməsi nəzərdə tutulmuşdur.

# Azərbaycanda hərbi xidmətə çağırış yaş həddi ilə bağlı yeni dəyişikliklər təklif olunub

Ölkə başçısı xalqın rifahı keşiyində dayanarsa, xalq həmişə onu dəstəkləyər. Verilən hər bir sərəncam və fərmanlar xalqın, ölkənin mənafeyinə xidmət edən qanunlar toplusunun əsasıdır. Ölkəmizin Ali Baş Komandanı, Prezident İlham Əliyev ümummilli liderimiz Heydər Əliyevin ideyalarını həyata keçirir, onun iş fəaliyyəti, apardığı daxili və xarici siyasəti həmişə xalqı ilə eyni fikirli, yekdil olmuşdur.

Bu günlərdə aldığımız məlumat - hərbi xidmətə çağırışla bağlı dəyişikliklər haqqındakı təklif də məhz ölkə prezidentinin düşüncələrindən qaynaqlanmışdır.

Bildiyimiz kimi, hazırkı qanuna görə 18 yaşından 35 yaşınadək Azərbaycan vətəndaşı olan kişi şəxslər hərbi xidmətə çağırış üçün uyğun hesab edilir. Lakin dəyişiklik qəbul edildiyi halda bu yaş həddi 18-dən 30-a qədər məhdudlaşdırılacaq.

Dəyişikliklər xüsusilə hərbi çağırışa möhlət hüququnu itirmiş və ya möhlət hüququ olmayan şəxslərə təsir edəcək. Qüvvədə olan qanuna əsasən bu kateqoriyaya aid şəxslər 35 yaşına qədər çağırış keçdikləri halda hərbi xidmətə cəlb olunurdu. Yeni təkliflərə görə həmin müddət 30 yaşa qədər endiriləcək.

Təklif edilən dəyişikliklər hələ müzakirə mərhələsindədir və qanunvericilikdə təsdiq olunacağı halda qüvvədə olacaq. Bu yenilik hərbi xidmətə çağırış prosesinin səmərəliliyini artırmaq və ordunun ehtiyaclarına daha çevik cavab vermək məqsədi daşıyır.

# Pensiyalarla bağlı yenilik

APA-ya istinadən verilən xəbərə görə Dövlət Sosial Müdafiə Fondundan bildirilmişdir ki, Azərbaycanda özəl pensiya fondlarının yaradılmasına başlanacaq.

Artıq «Qeyri-dövlət pensiya fondları haqqında» qanun layihəsi hazırlanıb və razılaşdırılmaq üçün aidiyyatı qurumlara təqdim olunub.

Müvafiq qurumlarla müzakirələrin nəticəsində özəl pensiya fondlarının fəaliyyətinin hüquqi, iqtisadi və maliyyə əsaslarının formalaşdırılması, həmin fondların fəaliyyətinə nəzarət mexanizmlərinin müəyyənləşdirilməsi məqsədilə layihənin təkmilləşdirilməsi üçün aidiyyatı qurumların nümayəndələri ilə birlikdə iş aparılır.

Qeyd edək ki, bu ilin yanvarında ƏƏSMN tabeliyindəki Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov 2023-cü ilin yekunlarına dair keçirdiyi mətbuat konfransında bildirmişdir ki, Azərbaycanda özəl pensiya fondu ilə bağlı normativ sənədlər tam yekunlaşıb. O, bildirmişdir ki, sənədlər bir ay ərzində dövlət qurumlarına razılaşdırılmaq üçün göndəriləcək.

Məlumata görə vətəndaşların pensiya kapitalının bir hissəsi özəl pensiya fondlarına yönəltmə imkanı əldə edəcək. Vətəndaş 50 - 55 yaşında toplanan pensiya kapitalının birbaşa götürərək biznes və ya hansısa təsərrüfat yarada, ev ala və digər məqsədlər üçün istifadə edə biləcək. Pensiya kapitalının qalan hissəsindən isə təqaüd almaqda davam edəcək. Birbaşa götürüləcək pensiya ödənişinin 50 - 70 faizi civarında ola biləcəyi bildirilir. Özəl pensiya fondlarının fəaliyyəti ilə əlaqədar məsələlər və məqamlar hələlik müzakirə predmetidir.

# Yaddaşlarda iz salan bayram

Dünya xalqlarının böyük əksəriyyəti yeni ilin başlanğıcını dekabrın 31-dən yanvarın 1-nə keçən gecə qeyd edir. Yeni ilin yanvarın 1-dən hesab olunması xristianlığın tarixi ilə bağlıdır. Rəvayətə görə xristian dininin yaradıcısı İsa peyğəmbər dekabrın 24-də anadan olmuşdur. Ona görə də xristianlar həmin günü bu şərəfə Milad bayramı kimi qeyd edirlər. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir və bu 431-ci ildə qanunilə şdirilmişdir. Bizim istifadə etdiyimiz təqvim də məhz miladi təqvim adlanır. Bu təqvimə əsasən yeni il yanvarın 1-dən başlanır.

Yeni ilin rəmzlərindən biri də Şaxta babadır. Müxtəlif ölkələrdə Şaxta babanı müxtəlif cür adlandırırlar. Məhz ABŞ-da və Avstraliyada o, Santa Klaus, Rusiyada Ded Moroz, Türkiyədə Noyel Baba, Yunanıstanda Müqəddəs Vasili adlanır. Hansı adda olur-olsun Şaxta baba uşaqların sevimlisidir. Bayram axşamı gələn Şaxta baba evlərə «əliboş gəlmir», torbalarındakı hədiyyələrlə uşaqları sevindirirlər. Vidalaşdıqları ilin son gecəsinin son anlarında hər kəs sükut içərisində son saatın son dəqiqəsini gözləyir və gələcək il üçün ilk xoş arzularını bir-birinə bildirirlər. Həmçinin köhnə ilin son gecəsi köhnəlikdən qurtarmaq üçün hər bir xalqın da özünəməxsus adət-ənənələri vardır. Məsələn, əşyaların dəyişdirilməsi, yenilərinin alınması və s. Hər ölkə bu bayramı özünəməxsus adətlərlə bir neçə gün qeyd edirlər. Ən başlıcası isə bayram ərəfəsində evləri yeni il atributları ilə bəzəyirlər.

Bəzi fərziyələrə görə Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu qədim germanlar və romalıların adı ilə bağlıdır. Başqa bir mənbə isə bu bayramın Mesopotamiyada yarandığını sübut etməyə çalışırlar.



Onu da qeyd edək ki, Yeni il heç də bütün ölkələrdə yanvarın 1-də qeyd olunmur.

Yeni il bayramını bərli-bəzəkli şam ağacsız təsəvvür etmək qeyri-mümkündür. Əbəttə, bu şam ağacı təbii küknar ağacından olsa daha gözəl olur; xüsusilə onun yarpaqları özünəməxsus ətirli olur. Ancaq təbiəti qorumaq məqsədilə daha çox süni şam ağaclarından istifadə olunur.

Yolka bəzəməyin mənası da çoxları üçün maraqlıdır. Bu bəzən xristian dini ilə əlaqələndirilir. Ancaq mənbələrdən aldığımız məlumata görə yolkanın bəzədilməsi xristianlıqdan əvvəl başlayıb və hansısa bir dinlə bağlı deyildir. Hələ miladdan çox-çox əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirdilər. Bu həyatın ölüm üzərində qələbəsinin rəmzidir.

Yeni il mərasimi Azərbaycanda da böyük maraq və sevinclə qeyd olunur. 25 əsrlik bir tarixə aid olan Yeni il bayramında şənliklər keçirilir, uşaqlar Şaxta baba ilə birlikdə Qar qızın yolunu gözləyirlər.

Yeni il ərəfəsində evlərdə «yolka»lar bəzədilir, park və müxtəlif münasib yerlərdə, bəzi idarə və müəssisələrdə küknar ağacları bəzədilir. Yeni il gecəsi süfrələrə bol nemətlər düzülür. İnanca görə bayram axşamı süfrənə qədər bol və gözəl olarsa, qarşıdan gələn ilin də məhz elə olacağı gözlənilir.

Bir çox ölkələrdə, o cümlədən Azərbaycanda da bayram zamanı fişəng və digər pirotexniki vasitələrdən istifadə olunur.

Bayram axşamı hər kəs süfrə arxasında xoş əhvalatlarla bağlı söhbətlər edər, onlara yaxın olan insanları təbrik edərlər. Həmçinin bəzədilmiş yolkanın altına ailənin üzvlərinə, xüsusilə körpələrə Şaxta babanın hədiyyələri qoyular, köhnə ilin son dəqiqələrində hədiyyələr təqdim olunar. Bəzən isə körpələr yeni ilin ilk günündə gözlədikləri hədiyyələrə sahib olarlar.

Yeni il insanların yaddaşında iz salan və sevilən bayramlardan biridir.

Yeni iliniz mübarək!

**Afət İSRAYILOVA,**
**Qəbələ şəhəri.**